# Ermənilərin tarixi isə saxtakarlıqdan o yana keçmir

Yaşlı və orta nəslin yadında olar: 1968-ci ildə erməni tarixçiləri saxtakarlıqla Erebuni (guya qədim İrəvan) şəhərinin guya 2750 il öncə salındığını sübuta yetirməyə cəhd göstərdilər, təntənəli yubileylər keçirdilər. Halbuki onlar əski erməni əlifbası ilə şəhərin salınma tarixini yazaraq onu şüşə qabın içərisində torpağa basdırmışdılar. Lakin həmin şüşə qabın II Yekaterina zamanında Rusiyada istehsal edildiyi təsdiqləndikdən sonra ifşa olundular. Bununla da erməni tarixçilərinin İrəvan şəhərinin əski türk şəhəri olması faktını danmaq cəhdləri bir daha puça çıxdı.

Ermənilər tarix boyu yalan uydurmağı, utanmadan, çəkinmədən onu bütün dünyaya yaymağı çox yaxşı bacarıblar. Yalanları ayaq tutub yeridikcə iştahları və həyasızlıqları da artıb. Uydurma erməni dövləti harada olub? Erməni alimləri həmin dövlətin sərhədlərini niyə cıza bilmirlər?! Niyə onlar erməni xalqının tarixi barədə uzun-uzadı yazır, amma erməni dövlətinin tarixi məsələsindən yan keçirlər?! Ona görə ki, dövlətin tarixindən yazarkən mütləq şəkildə gərək onun sərhədlərini göstərəsən. Ermənilər bunu edə bilmirlər. Hara qələm tuşlayırlarsa, o yerlərin əzəli sahibləri onlara dirsək göstərir.

Bax, elə bu səbəbdən də onlar tarix boyu erməni dövlətinin deyil, daha çox erməni xalqının tarixi barədə mifik dastanlar uydurub yaymaqla məşğul olublar. Başqa sözlə, köçüb gəldikləri ərazilərdə özlərinə yer edəndən sonra arasında və ya qonşuluğunda yaşadıqları xalqların dəyərlərini öz adlarına çıxmaqla saxta erməni tarixi formalaşdırmağa çalışıblar. Adi bir misal. Böyük folklorşünas alim Vəli Xuluflunun 1927-ci ildə çap etdirdiyi "Koroğlu" dastanı əldən-ələ gəzərək qonşu sovet respublikalarında da böyük əks-səda doğurur. Bunu görən ermənilərin folklorçu-ədəbiyyatşünasları özlərinə xalq qəhrəmanı axtarmağa-yaratmağa başlayırlar. Həmin dövrdə İrəvanda folklorşünasların toplantısı keçirilir. "Koroğlu"nun səsini-sorağını eşidən erməni "folklorşünas alim" Kanonyan Vəli Xulufluya yaxınlaşıb klassik erməni hiyləgərliyi ilə müraciət edir ki, nə deyirsən edim, epos müzakirə edilərkən onu erməni eposu kimi təqdim et. Cavab təbii ki, "yox" olur. Bu yoxdan sonra erməni "alim"i məqsədinə çatmaq üçün hətta iki dəfə Bakıya gəlir. Bu barədə mətbuatda geniş açıqlama verən araşdırmaçı-müəllif Həsən Həsənov "Tarix erməni satqınlığı və saxtakarlığına dair faktlarla zəngindir" məqaləsində yazır ki, birinci dəfə xahişi nəticəsiz qalan Kanonyanın ikinci dəfə professor Vəli Xuluflüdan xahişi və təklifi ciddi olur: "Sizdə "Koroğlu" dastanlarının bütün variantları və tarixi haqqında geniş məlumat var. Ermənilər üçün də qəhrəmanlıq rəmzi "Koroğlu" dastanları yaradılmalıdır. Azərbaycanda hakimiyyət ermənilərdədir, bu dastanı yaratmaqda kömək elə, əks-təqdirdə... sizə xətər yetişər". Erməni qorxaqlığına yaxşı bələd olan V.Xuluflu isə bu dəfə daha açıq və sərt şəkildə Kanonyana deyir ki, tarixçi-alim Veliçko kitabında yazır: "Təmiz qanlı ermənilər dovşandan da qorxurlar". Bundan əlavə şair A.S.Puşkin qoca dağlının dilindən: "Tı trus, tı rab, tı armenin" (sən qorxaqsan, sən qulsan, sən ermənisən - red) Belə qorxaq xalq Koroğlu yetişdirə bilərmi? Az da olsa milli qəhrəmanınız varsa - məsələn, Sasunlu Davud - o da təmiz qanlı erməni deyildir.

Rəsmi arxiv sənədlərindən, ədəbiyyat, tarix, kino, teatr, musiqi sahələrindən, hətta, adi geyimlərimizdən tutmuş mətbəximizin təamlarına kimi ermənilərin öz adlarına çıxması və belə yalanlarla yaxından tanış olmaq mümkündür. Bunu onlar təkcə biz azərbaycanlılara və türklərə qarşı etməyiblər. Elə qonşularımız olan gürcülər də erməni riyakarlığından az əziyyət çəkməyiblər. Görün, tanınmış gürcü yazıçısı və ictimai xadimi İlya Çavçavadze hələ 100 il öncə ermənilər necə xarakterizə edib: "Ermənilər sözlə və qələmlə bütün dünyaya and içirlər ki, guya, Qafqaz sıra dağlarının o biri tərəfindən Dəclə və Fərat çaylarının başlanğıcına qədər, demək olar ki, Qara dənizdən Xəzər dənizənədək qədimdən Ermənistan deyilən yer olub". Gürcü müəllifi daha sonra yazır: "Bizi Yer üzündən tamamilə silib atmaq üçün onlar adımızı biabır edir, bizi milli heysiyyətdən məhrum etməklə kifayətlənməyərək, bütün tariximizi də, salnaməmizi də, tarixi qalıqlarımızı və abidələrimizi, bizə məxsus hər şeyi müxtəlif fırıldaqlar yolu ilə özlərinin adına çıxırlar. Amma nə olsun? Nə artıra biliblər?! Məşhur atalar məsəlində deyildiyi kimi, "İtdən çox çarıq oğurlayan yoxdur, amma ayağı hələ də yalındır". Ermənilərin oğru, qarayaxan, hiyləgər, riyakar, satqın və etibarsız toplum olduğu artıq hər kəsə bəllidir".

Məlum və danılmaz həqiqətdir ki, ermənilər Qarabağa 1828-ci ildən sonra Türkmənçay sülh müqaviləsinin şərtlərinə uyğun olaraq köçürülüblər. Ona görə də Qarabağ ərazisində 1828-ci ildən əvvələ aid heç bir erməni izi olmayıb. Bəli, ermənilər özləri də çox yaxşı bilirlər ki, Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb. Bu saxta dövlət Rusiya imperiyası dağılandan sonra 1918-ci ildə yaradılıb, paytaxt elan etmək üçün şəhər tapılmayanda isə əzəli Azərbaycan şəhəri olan İrəvan onlara "peşkəş" edilib. Təkcə buna görə əbədi olaraq Azərbaycan xalqına minnətdar olmaq əvəzinə, görün bu həyasız toplum özünə yer etdikdən sonra daha nələr etdi?! Azərbaycana, Türkiyəyə, qonşu Gürcüstana ərazi iddiaları irəli sürdü. İnsan da özününkü olmayana axı necə iddia edə bilər?!

Azərbaycanlıların Qərbi Azərbaycandan ilk deportasiya dövrü 1905-1920-ci illəri əhatə edir. O zaman milli zəmində baş verən qanlı hadisələr nəticəsində həmin ərazidə mövcud olmuş 1000-ə yaxın Azərbaycan kəndi xəritədən tamamilə silinmişdir. Daha sonra sovet hökuməti tərəfindən 1948-1953-cü illər ərzində hiyləgər erməni millətçilərinin təhriki nəticəsində 150 mindən artıq azərbaycanlı dədə-baba yurdundan deportasiya olunmuşdur. 1988-ci ildə baş vermiş son deportasiya hadisəsi isə əvvəlkindən fərqli amillərlə səciyyələnir. Bu deportasiya milli zəmində, Qərbi Azərbaycanda yaşayan 300 minədək həmvətənimizin öz doğma yurdlarından zorla qovulması ilə tarixə düşüb. Bu proses zamanı soydaşlarımız ağır məşəqqətlərə məruz qalıblar. Ata-baba yurdlarından zorla qovulmaları, onların fiziki və mənəvi əzablara düçar edilməsi təkcə azərbaycanlılara qarşı deyil, ümumilikdə bəşəri dəyərlərə qarşı törədilmiş cinayət idi.

Minilliklər boyu formalaşmış maddi-mədəni irsimiz Qərbi Azərbaycandakı soydaşlarımızın izlərini silmək üçün məqsədyönlü şəkildə aparılan siyasət nəticəsində məhv edilib. Tarixi abidələr dağıdılıb, toponimlər dəyişdirilib, qəbiristanlıqlar yerlə yeksan olunub, mədəniyyət nümunələrimiz saxtalaşdırılaraq ermənilərə aid edilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar növbəti hədəfləri dəf etmək üçün böyük imkanlar açmışdır. Sevindirici haldır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmişdir. Azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılmışdır. Dövlət başçısı Qərbi Azərbaycanın tarixi ərazimiz olduğunu nüfuzlu beynəlxalq kürsülərdən dəfələrlə bəyan etmişdir.

Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm addımlar atır. İcma rəhbərliyi və üzvləri fəaliyyət dairələrini və əlaqələrini daha da genişləndirir, ölkəmizin müxtəlif bölgələrində məskunlaşmış qərbi azərbaycanlılarla əlaqələr qurur, şəhər, rayon, qəsəbə və kəndlərdə, eləcə də xarici ölkələrdə ofisini yaradır, nümayəndəlik açır, sərgilər, festivallar, milli maddi-mədəni irsimizi təbliğ edən görüşlər təşkil edir. Bu qəbildən olan görüşlər sırasında şəhər və rayonlarda "Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" kitabın (müəllifləri Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli və tədqiqatçı-alim Səbuhi Hüseynovdur) təqdimat mərsimləri diqqətçəkəndir. Tariximizi sənədlərlə, faktlarla, mədəniyyət nümunələri ilə sübut edən bu dəyərli kitabda Qərbi Azərbaycan ərazisində azərbaycanlıların tarixən yaratdığı dövlətçilik ənənələri, maddi və qeyri-maddi mədəni irs, məruz qaldıqları tarixi ədalətsizliklər və cinayətlər, itirdikləri maddi-mənəvi sərvətlər haqqında davamlı tədqiqatlar aparılması genişliyi ilə ictimaiyyətə çatdırılır. Qeyd edək ki, bu istiqamətdə müasir elmi yanaşmalara uyğun yeni fundamental araşdırma - "Qərbi Azərbaycan irsi" tədqiqatlar seriyası nəşr edilir. Azərbaycan, ingilis və rus dillərində nəfis tərtibatla çap edilən nəşrin 5 hesabatdan ibarət olması nəzərdə tutulur.

Görünən odur ki, ermənilərin tarixi saxtalaşdırma cəhdləri və uydurmaları istər beynəlxalq aləmdə, istərsə də Cənubi Qafqazda məhvə məhkumdur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 24 iyul (№ 151).- S.6.